# AZƏRBAYCAN XALQ MAHNILARI ÜZRƏ YENİ TƏDQİQAT

*Cəmilə HƏSƏNOVA*

Dahi bəstəkar və musiqişünas Üzeyir Hacıbəyli xalq mahnılarını səciyyələndirərək demişdir: "El mahnıları Azərbaycan xalqının əhval-ruhiyyəsini şərh, zövq musiqisini bəyan, şeir və musiqidəki yaradıcılıq qabiliyyətinin dərəcəsini təyin edə bilən böyük bir material olduğundan onun istər musiqi, istər ədəbi, istər psixoloji, istər etnoqrafik əhəmiyyəti çox böyükdür" [1, s. 301]. Sözsüz ki, bu fikir xalq mahnılarının əhəmiyyətini dəyərləndirməyə yol açır. Üzeyir bəy xalq mahnılarının tədqiqini musiqişünaslıq üçün vacib məsələlərdən biri hesab edərək, onun tədqiqi yollarını da göstərmişdir.

Məlumdur ki, xalq mahnılarının tədqiqi onların yazıya alınmasından başlayır. Bu istiqamətdə Azərbaycan etnomusiqişünaslığında mühüm işlər görmüş bəstəkar və musiqişünasların adı musiqi tarixinin səhifələrinə yazılmışdır. Üzeyir Hacıbəyli və Müslüm Maqomayevdən başlayaraq, Asəf Zeynallının, Səid Rüstəmovun, Qara Qarayevin, Cövdət Hacıyevin, Fikrət Əmirovun, Zakir Bağırovun, Davud Məmmədbəyovun və başqalarının not yazılan xalq mahnılarının zəngin irsini qoruyub saxlayaraq, bizə çatdırmış, onların həm bəstəkar yaradıcılığında tətbiqinə, həm tədris prosesində istifadə olunmasına yol açaraq, elmi tədqiqatlara təkan vermişdir. Bu baxımdan, Məmməd-saleh İsmayılovun, Əhməd İsazadənin, Rauf İsmayılzadənin, Əfruzə Məmmədovanın, Aydın Ziyadlının və digər Azərbaycan musiqişünaslarının xalq mahnıları üzrə tarixi-nəzəri tədqiqatları yeni gələn nəsillərin diqqətinin bu sahəyə yönəldilməsində mühüm rol oynamışdır. Bu sahədə "Musiqi dünyası" jurnalının elektron nəşrlər mərkəzinin, sənətşünaslıq üzrə elmlər doktoru, professor Tariyel Məmmədovun rəhbərliyi ilə hazırladığı layihələr, xalq mahnılarının toplanması, müasir texnologiyalar vasitəsilə işlənilərək, internet saytlarında və elektron nəşrlərdə tətbiqi cəmiyyətin musiqi həyatında həm Azərbaycan xalq mahnılarının, həm də azsaylı xalqların musiqi folklorunun düzgün təbliğində və səmərəli istifadəsində böyük rol oynayır [2].




Belə bir zəngin elmi irsə malik Azərbaycan etnomusiqişünaslığında tədqiqat işlərinin davam olunması da diqqətəlayiqdir. Belə ki, ayrı-ayrı janrların tədqiqi ilə yanaşı, Azərbaycan xalq mahnıları üzrə tam əhatəli tədqiqatlara böyük ehtiyac vardır. Bu baxımdan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan ənənəvi musiqisi və müasir texnologiyalar" kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Leyla Zöhrabovanın həyata keçirdiyi böyük bir tədqiqat - "Azərbaycan xalq mahnılarının nəzəri əsasları" adlı monoqrafiyanın çapı diqqətəlayiqdir.

Leyla Zöhrabovanın bu mövzuya müraciəti təsadüfi olmamışdır. Leyla - görkəmli musiqişünas alim, Azərbaycan muğamşünaslığına böyük töhfələr vermiş tədqiqatçı, pedaqoq, musiqi-ictimai xadim, Azərbaycanın xalq artisti, professor Ramiz Zöhrabovun qızı və tələbəsi - yetirməsi, bəlkə də bir alim kimi "elmi fəaliyyətinin bəhrəsidir", desək yanılmarıq. Çünki Leyla məhz öz böyük müəllimindən musiqişünas üçün vacib olan iş metodlarını, tədqiqatçılıq bacarığını əxz edərək, aldığı biliklərdən bəhrələnərək, fikrini xalq musiqisinin elmi-nəzəri tədqiqinə yönəldə bilmişdir. Sənətşünaslıq üzrə fəlsəfə doktorluğu dissertasiyasında xalq rəqslərinin nəzəri tədqiqi ilə məşğul olmuş Leyla Zöhrabova, növbəti mərhələdə, elmlər doktorluğu dissertasiyasında xalq mahnılarının nəzəri tədqiqini aparmışdır. Bu sahədə elmi araşdırmalarının nəticəsi olaraq, onun çoxsaylı məqalələri çap olunmuşdur.

Hazırkı təqdim edilən "Azərbaycan xalq mahnılarının nəzəri əsasları" monoqrafiyası **(Bakı, "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi, 2018, 416 s.)** Leyla Zöhrabovanın bu istiqamətdə apardığı elmi araşdırmalarının ümumiləşdirilməsi ilə bağlıdır.

Monoqrafiyanın mündəricəsi kifayət qədər əhatəlidir və xalq mahnıları üzrə nəzəri tədqiqatın bütün sahələrini əks etdirir. I fəsildə "Azərbaycan xalq mahnılarının məqam əsasının tədqiqi" - Üzeyir Hacıbəylinin məqam nəzəriyyəsinə əsaslanaraq, rast, şur, segah, çahargah, bayatı-şiraz, şüştər və hümayun məqamları üzrə aparılmışdır. II fəsildə "Azərbaycan xalq mahnılarının melodik xüsusiyyətləri"nin öyrənilərək, melodiyanın hərəkət üsulları, sıçrayışların təzahürü, sekvensiyadan istifadə yolları, melodik gəzişmələr, melodiyada predyomdan istifadə yolları, melodik təkrarların növləri açıqlanmışdır. III fəsil "Azərbaycan xalq mahnılarının forma-quruluş xüsusiyyətləri"nin araşdırılmasına həsr olunaraq, xalq mahnılarında bənd quruluşu, bənd-nəqərat quruluşu və istifadə olunan digər formalar baxımından öyrənilmişdir. IV fəsil "Azərbaycan xalq mahnılarında musiqi ritmi ilə sözün vəhdəti" məsələlərinin tədqiqi ilə bağlı olub, xalq mahnılarının yeddi, səkkiz və on bir hecalı mətnlərə, müxtəlif heca saylı mətnlərə əsaslanması, eləcə də mahnı nümunələrində əruz vəzninin təzahür aspektlərinə həsr olunmuşdur [3].

Qeyd etmək lazımdır ki, bütün bu göstərilən məsələlər üzrə tədqiqatın aparılması etnomusiqişünaslıqda mühüm əhəmiyyət kəsb edir. Müəllif xalq mahnılarının nəzəri əsaslarını bir müstəviyə gətirərək, onların əhatəli həllini verməyə çalışmışdır. Əlbəttə ki, L.Zöhrabovanın etnomusiqişünaslığın elmi nailiyyətlərinə əsaslanaraq həyata keçirdiyi tədqiqat öz əhatə dairəsi, elmi tutumu, tədqiqat materialının dolğunluğu, səlis elmi ifadə tərzi ilə diqqəti cəlb edir və xalq mahnılarının tədqiqi sahəsinin zənginləşdirilməsinə xidmət edir. Müəllifin böyük həcmli xalq mahnıları irsinə müraciət edərək, mövcud olan bütün not yazılarını tədqiqata cəlb etməsi və bu cür material bolluğunda öz yolunu seçərək, sistemli şəkildə nəzəri araşdırma aparması da təqdirəlayiqdir.

Leyla Zöhrabovanın "Azərbaycan xalq mahnılarının nəzəri əsasları" monoqrafiyasının bütün məziyyətlərini, dəyərli cəhətlərini açmaq üçün bəlkə də xalq mahnıları irsinə və etnomusiqişünaslıq tədqiqatlarına dönə-dönə müraciət etmək, bütün məsələləri incələmək lazım gələr. Bunu biz gələcək tədqiqatçıların öhdəsinə buraxaraq, Leyla Zöhrabovaya elmi yaradıcılığında müvəffəqiyyətlər arzulayırıq.

## ƏDƏBİYYAT

1. Hacıbəyli Ü. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı, 2004. 300 s.
2. Azərbaycanın ənənəvi musiqisi saytı. enene musiqi-dunya.az